UOT: 330.362

Aslan Cavid oğlu ƏZİMZADƏ
Odlar Yurdu Universiteti, “İqtisadiyyat və iqtisadi münasibətlər” kafedrasının müəllimi
Bakı Avrasiya Universitetinin doktorantı
E-mail: aslan.azimzadeh@oyu.edu.az
https://doi.org/10.30546/4.71.73001.2026.005.039

AZƏRBAYCANDA İSTEHLAK VƏ YIĞIM ARASINDAKI MAKROPROPORSİONALLIĞIN TƏHLİLİ

Xülasə

Tədqiqatın məqsədi – Azərbaycanda Ümumi Daxili Məhsul (ÜDM), istehlak və yığım arasındakı makroproporsiyanın qiymətləndirilməsidir.

Tədqiqatın metodologiyası – Məqalədə kəmiyyət tədqiqat metodundan istifadə edilərək korrelyasiya, statistik və müqayisəli təhlildən istifadə edilmişdir.

Tədqiqatın tətbiqi əhəmiyyəti – Sözügedən tədqiqatın nəticələri milli iqtisadiyyatın uzunmüddətli inkişaf planlarının hazırlanmasında əhəmiyyətli indikator kimi çıxış edə bilər.

Tədqiqatın nəticələri – Azərbaycanda ÜDM-İstehlak, ÜDM-Yığım və İstehlak-Yığım arasında güclü korrelyasiya müəyyən edilmişdir. ÜDM-İstehlak və ÜDM-Yığım proporsiyalarının əmsalları optimal proporsiya əmsalı daxilindədir. İstehlak-Yığım proporsiyasının təhlili ilə belə bir nəticəyə gəlinmişdir ki, hər 1 manat yığım qarşısında 3.82 manat istehlak xərci dayanır. Sözügedən göstərici yığıma daha az meyilliliyin olmasını səciyyələndirir ki, bu da uzunmüddətli perspektivdə investisiya azlığı və disproporsionallığın formalaşması ilə bağlı siqnal ola bilər. Yarana biləcək disproporsionallığın qarşısının alınması məqsədilə daxili investisiyaların stimullaşdırılması üzrə mütərəqqi siyasətin inkişaf etdirilməsi zəruridir.

Tədqiqatın orijinallığı və elmi yeniliyi – ÜDM-İstehlak, ÜDM-Yığım və İstehlak-Yığım makroproporsiyalarının sistemli təhlilidir.

Açar sözlər: makroiqtisadi proporsiyalar, tənzimlənmə, istehlak, yığım, ÜDM, korrelyasiya

Giriş

Günümüzdə bir sıra ölkələrin iqtisadiyyatı disproporsionallıqdan, yəni makroiqtisadi proporsiyalararası balansın pozulmasından ciddi mənfi təsirə məruz qalır. Makroiqtisadi proporsiyaların tənzimlənərək balanslı saxlanılması minimum xərclər ilə maksimum faydalılığın əldə edilməsi üçün zəruridir [1]. Bütövlükdə makroiqtisadi proporsiyaların təhlili iqtisadi siyasətin səmərəliliyi və effektivliyinin ölçülməsi üçün vacibdir[2]. Bu proporsiyalar iqtisad elminin müxtəlif məktəbləri tərəfindən, o cümlədən, Marksist və Keynsçi məktəb tərəfindən araşdırılmışdır [3], [4].

Bütövlükdə makroiqtisadi proporsiyalar özündə iqtisadi göstəricilərin nisbətini ehtiva etməkdədir. Bəzi tədqiqatçılar proporsional analizin bir tərəfini ÜDM olaraq səciyyələndirməkdədir ki, bunlara borc/ÜDM proporsiyası, investisiya/ÜDM proporsiyası, ticarət/ÜDM proporsiyası və s. aiddir [5], [6], [7]. Bəziləri isə fərqli, lakin bir-birilə birbaşa yaxud dolayı əlaqəsi olan proporsiyalardan istifadə edirlər [8], [9].

Qeyd etmək lazımdır ki, ÜDM-in strukturunda istehlak və yığımın proporsiyası da bir sıra tədqiqatçılar tərəfindən təhlil edilmişdir. Belə ki, U.Q.Şahbazov məhz Azərbaycan üzrə bu proporsiyaları tədqiq etmişdir. Tədqiqatçı istehlak və yığımın ÜDM daxilindəki faiz nisbətlərini qiymətləndirmişdir [10]. N.V.Mityayeva və Y.V. Fyodorova isə gəlirlərdəki istehlak və yığımın proporsionallığını təhlil etmişdirlər [11]. Eyni zamanda, E.Ndirangu və W.Muturi Kenya nümunəsində apardıqları tədqiqatda həm yığım və ÜDM arasında korrelyasiyanı təhlil etmiş, həm də sözügedən proporsionallığı çoxamilli reqressiya modeli ilə izah etməyə çalışmışlardır [12]. Digər tərəfdən M.Palat və A.Kunc 35 ölkə üzrə apardıqları tədqiqatda istehlak və ÜDM proporsiyasını

təhlil etmişlərdir [13]. I.Y. Jammeh isə ÜDM və istehlak arasındakı əlaqənin təhlil edilməsi kontekstində Qərbi Afrika ölkələrində ÜDM və istehlak arasındakı korrelyasiyanı qiymətləndirmişdir [14].

Bu tədqiqatda hər iki tipli proporsional təhlil üslubundan istifadə ediləcəkdir. Sözügedən tədqiqatın başlıca sualları aşağıdakı kimidir.

Tədqiqat sualı 1: Azərbaycanda ÜDM, istehlak və yığım arasında korrelyasiya əlaqəsi hansı səviyyədədir?

Tədqiqat sualı 2: ÜDM-İstehlak və ÜDM-Yığım proporsional əmsallarının illər üzrə dinamikası hansı vəziyyətdədir?

Tədqiqat sualı 3: İstehlak-Yığım proporsional əmsalının illər üzrə dinamikası hansı vəziyyətdədir?

Metodologiya

Tədqiqatın metodoloji bazasını Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin (ARDSK) məlumatları səciyyələndirəcəkdir. Tədqiqat zamanı analizlər və qrafik vizuallaşmalar müvafiq olaraq IBM SPSS Statistics 27.0.1 və Gretl proqram təminatları vasitəsilə reallaşdırılacaqdır. Birinci tədqiqat sualının cavablandırılması üçün korrelyasiya analizindən istifadə ediləcəkdir. Lakin, burada normallıq testlərinin aparılması zəruridir, çünki, bu testlər bizə korrelyasiya analizi zamanı hansı növ korrelyasiyadan istifadə etməyimizin qiymətləndirilməsinə zəmin yaradacaqdır [15]

Cədvəl 1.

ÜDM, istehlak və yığım üşün normallıq testləri

	Kolmogorov-Smirnov[a]			Shapiro-Wilk		
	Statistika	df	Əhəmiyyətlilik	Statistika	df	Əhəmiyyətlilik
ÜDM	.105	24	.200*	.933	24	.115
İstehlak	.130	24	.200*	.916	24	.047
Yığım	.211	24	.007	.912	24	.038
*. Bu, həqiqi əhəmiyyətin aşağı həddidir.						
a. Lilliefors əhəmiyyətinin korreksiyası						

Mənbə: müəllif tərəfindən hesablanmışdır

Dəyişənlər üçün SPSS proqram təminatı vasitəsilə Kolmogorov-Smirnov və Shapiro-Wilk normallıq testləri aparılmışdır. Qəbul edilmiş qaydaya əsasən nümunə ölçüsü 50-dən kiçik olduğu zaman Shapiro-Wilk, 50-dən böyük olduğu zaman isə Kolmogorov-Smirnov testi əsas götürülməlidir [16]. Bu tədqiqatda nümunə ölçüsü 24 olduğu üçün Shapiro-Wilk testi əsas götürüləcəkdir. Shapiro-Wilk normallıq testinin nəticəsində ÜDM üzrə normallıq aşkar edilsə də istehlak və yığımda normallıq aşkar edilməmişdir. Çünki, ÜDM üzrə Shapiro-Wilk normallıq testinin əhəmiyyətlilik əmsalı 0.05-dən yuxarı olmasına baxmayaraq istehlak və yığımda bu əmsallar 0.05-dən daha aşağıdır. Bu səbəbdən də tədqiqat işində Spearman dərəcə korrelyasiyasının aparılması daha məqsədəuyğundur [15].

Spearman dərəcə korrelyasiya əmsalının düsturu aşağıdakı kimidir: [17]

$$r_s = 1 - \frac{6\sum d_i^2}{n(n^2-1)} \quad (1)$$

Burada n ümumi müşahidə sayı, d_i isə iki dəyişənin sıralanmış qiymətləri arasındakı əhəmiyyətli fərqi göstərir [18]. Korrelyasiya əmsalı -1 ilə 1 arasında dəyişməkdədir və vahidə yaxınlaşdıqca əlaqənin güclənməsini özündə səciyyələndirir. Əmsalın 0 olması isə korrelyasiyanın olmamasını şərtləndirir [19].

Digər tərəfdən proporsionallıq əmsallarının hesablanması aşağıdakı düsturlar vasitəsilə həyata keçiriləcəkdir.

$$\text{ÜDM} - \text{İstehlak proporsiyası} = \frac{\text{C}}{\text{Y}} \quad (2)$$

Burada *C* son istehlak xərcləri, *Y* isə ÜDM-dir. Bu proporsiya ÜDM-in nə qədər hissəsinin istehlak olunduğunu müəyyənləşdirməyə köməklik edir.

$$\text{ÜDM} - \text{Yığım proporsiyası} = \frac{\text{S}}{\text{Y}} \quad (3)$$

Burada S ümumi yığımdır. Bu proporsiya isə ÜDM-in nə qədər hissəsinin yığıldığını müəyyənləşdirməyə köməklik edir.

$$\text{İstehlak} - \text{Yığım proporsiyası} = \frac{\text{C}}{\text{S}} \quad (3)$$

Bu proporsiya bizə istehlak ilə yığım arasındakı əlaqəni səciyyələndirməyə imkan verir. Məsələn, əgər proporsiya əmsalı 2 çıxmışdırsa, bu o deməkdir ki, hər 1 manat yığıma müvafiq olaraq 2 manat istehlak vardır. Bütün bu təhlillər bizə ÜDM, istehlak və yığım arasındakı proporsional əlaqənin qiymətləndirilməsi zəminində önəm daşıya bilir.

Tapıntılar və müzakirə

Birinci tədqiqat sualına müvafiq olaraq, Azərbaycanda ÜDM, istehlak və yığım arasında korrelyasiya əlaqəsinin hansı səviyyədə olmasının qiymətləndirilməsi zəruridir. Aparılan Spearman dərəcə korrelyasiyasının nəticələri aşağıdakı kimidir.

Cədvəl 2.


Spearman dərəcə korrelyasiyası matrisi

			ÜDM	İstehlak	Yığım
Spearman rho	ÜDM	Korrelyasiya əmsalı	1.000	.992**	.949**
	İstehlak	Korrelyasiya əmsalı	.992**	1.000	.955**
	Yığım	Korrelyasiya əmsalı	.949**	.955**	1.000
**. Korrelyasiya 0,01 səviyyəsində əhəmiyyətlidir (1 tərəfli).					

Mənbə: müəllif tərəfindən hesablanmışdır

Spearman dərəcə korrelyasiya əmsalının nəticələrinə görə ÜDM və istehlak, ÜDM və yığım, eyni zamanda, istehlak və yığım arasında güclü korrelyasiya mövcuddur. Belə ki, ÜDM və istehlak arasında 0.992, ÜDM və yığım arasında 0.949 və istehlak və yığım arasında 0.955 əmsallı Spearman dərəcə korrelyasiyası müəyyən edilmişdir. Hər üç əmsal 0.01 səviyyədə əhəmiyyətlidir. Müqayisə üçün qeyd etmək lazımdır ki, E. Ndirangu, və W. Muturi Kenya üzərinə apardıqları tədqiqatda ÜDM ilə yığım arasında 0.179 əmsallı korrelyasiya tapmışdırlar ki, bu da faktiki olaraq əlaqənin olmaması deməkdir [12]. Digər tərəfdən, I.Y. Jammeh isə Qərbi Afrika üzərinə apardığı araşdırmada Pearson korrelyasiya metodundan istifadə edərək, istehlak ilə ÜDM arasında 0.345 əmsala malik, olduqca zəif xətti korrelyasiya olmasını müəyyən etmişdir. Bu tədqiqatdakı nəticələr isə dəyişənlər arasında güclü korrelyasiya olmasını səciyyələndirir.

Tədqiqatın ikinci sualına müvafiq olaraq ÜDM-İstehlak və ÜDM-Yığım proporsiyalarının tədqiq edilməsi zəruridir. Bu iki göstərici bizə ÜDM daxilində istehlak və yığımın bölgüsünün necə olduğunu səciyyələndirəcəkdir. Lakin, ilk öncə beynəlxalq təcrübəyə əsaslanaraq dünyanın inkişaf etmiş ölkələrində bu göstəricilərin hansı aralıqda dəyişdiyini analiz edək. Çünki, bu aralığı biz ÜDM-İstehlak və ÜDM-Yığım proporsiyası üçün optimal aralıq olaraq müəyyən edəcəyik. İlk olaraq ÜDM-İstehlak proporsiyasına nəzər salaq.




Şəkil 1. İnkişaf etmiş ölkələrdə son istehlak xərclərinin ÜDM-dəki payı (faizlə)

Mənbə: Dünya Bankının göstəriciləri əsasında müəllif tərəfindən vizuallaşdırılmışdır (https://data.worldbank.org/)

Müqayisəli təhlil üçün G7 ölkələri olan ABŞ, İtaliya, Kanada, Fransa, Almaniya, Yaponiya, Böyük Britaniya və G7 ölkələrinə nisbətdə iqtisadi cəhətdən nisbətən Azərbaycana daha yaxın olan Sloveniya və Çexiya kimi inkişaf etmiş ölkələr götürülmüşdür. Son istehlak xərclərinin ÜDM-dəki payı məhz ÜDM-istehlak proporsiyasının faiz ilə hesablanmış variantıdır. Lakin, biz göstəricilərin indikativliyini səciyyələndirmək məqsədilə əmsal üzərindən təhlil aparacağıq. Proporsional əmsalın optimal aralığının seçilməsi üçün son müşahidə ili olan 2023-cü ilin göstəricilərini seçəcəyik. Beləliklə, yuxarıdakı Şəkil 1-ə nəzər salsaq belə bir nəticəyə gələ bilərik ki, 2023-cü ildə inkişaf etmiş ölkələr üzrə ÜDM-istehlak proporsiya əmsalının optimal aralığı məhz 67 və 83.7 faiz yaxud 0.67 və 0.84 arasında dəyişəcəkdir. Belə ki, bu ölkələr arasında ən aşağı ÜDM-İstehlak proporsional əmsalı Çexiyada, ən yüksək ÜDM-İstehlak proporsional əmsalı isə Böyük Britaniyada müşahidə edildiyi üçün məhz bu ölkələrin proporsiya göstəriciləri əsas götürülmüşdür. Bütövlükdə isə 9 ölkə üzrə son istehlak xərclərinin ÜDM-dəki payının orta göstəricisi 75.9 faiz yaxud 0.75 olaraq qiymətləndirilmişdir.

Növbəti mərhələdə ÜDM-Yığım proporsiyasının sözügedən ölkələr üzrə təhlili və optimal aralığın müəyyən edilməsi önəmli amil kimi çıxış etməkdədir.



Şəkil 2. İnkişaf etmiş ölkələrdə ümumi yığımın ÜDM-dəki payı (faizlə)
Mənbə: Dünya Bankının göstəriciləri əsasında müəllif tərəfindən vizuallaşdırılmışdır (https://data.worldbank.org/)

Yuxarıdakı Şəkil 2-yə nəzər salsaq belə bir nəticəyə gəlmək mümkündür ki, ÜDM-yığım proporsional əmsalının optimal aralığı 15.1 faiz və 30.9 faiz yaxud 0.15 və 0.31 arasındadır. Belə ki, 2023-cü il üzrə ən aşağı ÜDM-Yığım proporsional əmsalı Böyük Britaniyada, ən yüksək ÜDM-Yığım proporsional əmsalı isə Çexiyada müşahidə olunmaqdadır. Bütövlükdə isə 9 ölkə üzrə ümumi yığımın ÜDM-dəki payının orta göstəricisi 23.9 faiz yaxud 0.24 olaraq qiymətləndirilmişdir.

Hər iki proporsiya əmsalları üzrə optimal aralığın müəyyən edilməsi tədqiqatın növbəti mərhələsinin sistemli təhlilinin reallaşdırılması üçün zəmin yaratmaqdadır. Azərbaycan üzrə sözü gedən proporsionallıq əmsalları aşağıdakı kimidir.

Cədvəl 3-ə nəzər salsaq görərik ki, 24 il ərzində hər üç dəyişəndə artım müşahidə edilmişdir. Belə ki, ÜDM, istehlak və yığım bu illər ərzində müvafiq olaraq 26.1, 22.2 və 22.4 dəfə artmışdır. Bu onu deməyə imkan verir ki, ÜDM-in artımı bu illər ərzində istehlak və yığım artımından daha çox olmuşdur, bu isə artıq proporsionallıq əmsalının azala bilməsi ilə ilkin siqnalları verməkdədir. ÜDM-İstehlak və ÜDM-Yığım proporsiyalarının əmsallarını analiz etdiyimiz zaman görürük ki, hər iki əmsalın dinamikası volatil olsa da, illər üzrə bir azalma müşahidə edilir. Belə ki, ÜDM-İstehlak proporsiyasının əmsalı 0.796-dan 0.678-ə qədər, ÜDM-Yığım proporsiyasının əmsalı isə 0.207-dən 0.177-ə qədər enmişdir. Bu göstəricilər optimal aralıqda yerləşsə də, bu optimal aralığın aşağı sərhədlərinə yaxındır ki, bu da müəyyən mənada uzunmüddətli perspektivdə disproporsionallığın formalaşmasını səciyyələndirə bilər. Hər iki proporsiya əmsalları orta optimal aralıqdan aşağıdadır. ÜDM-İstehlak proporsiyası özünün ən kiçik qiymətini 2008-ci ildə almışdır. Bunun

əsas səbəbi bu il ərzində neft qiymətlərinin kəskin artması və bunun fonunda da ÜDM-in artması olmuşdur. Doğrudur, istehlak da artmışdır. Lakin, ÜDM artım tempi istehlakın artım tempindən daha yüksək olduğu üçün proporsionallıq əmsalı statistik illüziya göstərərək azalmışdır. Eyni statistik illüziya 2008-ci il yığım üçün də keçərlidir. Lakin, yığım ən minimum nöqtəsini bu aralıqda almamışdır.

Cədvəl 3.

Azərbaycanda ÜDM-İstehlak və ÜDM-Yığım makroproporsiyaları (2000-2023)

İllər	ÜDM (milyon manat)	İstehlak (milyon manat)	Yığım (milyon manat)	ÜDM-İstehlak proporsionallıq əmsalı	ÜDM-Yığım proporsionallıq əmsalı
2000	4.718,1	3.753,8	975,4	0,796	0,207
2001	5.315,6	3.994,2	1.099,1	0,751	0,207
2002	6.062,5	4.565,3	2.096,2	0,753	0,346
2003	7.146,5	5.170,9	3.799,8	0,724	0,532
2004	8.530,2	5.861,3	4.946,7	0,687	0,580
2005	12.522,5	6.579,7	5.201,2	0,525	0,415
2006	18.746,2	8.556,3	5.597,5	0,456	0,299
2007	28.360,5	12.212,5	6.104,6	0,431	0,215
2008	40.137,2	16.829,8	7.503,1	0,419	0,187
2009	35.601,5	19.182,1	6.746,0	0,539	0,189
2010	42.465,0	21.336,1	7.669,0	0,502	0,181
2011	52.082,0	24.679,7	10.555,9	0,474	0,203
2012	54.743,7	27.370,2	12.217,0	0,500	0,223
2013	58.182,0	30.363,0	14.928,3	0,522	0,257
2014	59.014,1	33.238,8	16.234,8	0,563	0,275
2015	54.380,0	37.575,7	15.179,4	0,691	0,279
2016	60.425,2	43.228,5	15.518,1	0,715	0,257
2017	70.337,8	48.482,2	17.147,6	0,689	0,244
2018	80.092,0	51.745,1	16.122,1	0,646	0,201
2019	81.896,2	56.205,5	16.631,3	0,686	0,203
2020	72.578,1	55.961,2	17.176,3	0,771	0,237
2021	93.203,2	61.729,2	15.917,8	0,662	0,171
2022	133.973,0	73.691,5	16.081,7	0,550	0,120
2023	123.128,0	83.480,9	21.846,9	0,678	0,177

Mənbə: Cədvəl Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin göstəriciləri əsasında müəllif tərəfindən tərtib edilmişdir (https://stat.gov.az/)

U.Q.Şahbazov Azərbaycan üzrə makroiqtisadi proporsiyaların tədqiqində də oxşar nəticəyə gəlmiş və illər üzrə ÜDM-də istehlak və yığımın xüsusi çəkisinin azalması tendensiyasını qiymətləndirmişdir [10]. Bununla belə, müəllifin tədqiqatı 2000-2009-cu illəri əhatə edir. Bu tədqiqatın isə müşahidə sayı sözügedən tədqiqatın müşahidə sayından 2.4 dəfə çox olduğundan makroiqtisadi proporsiyaları daha effektiv şəkildə qiymətləndirməyə imkan verir. N.V.Mityayeva və Y.V. Fyodorovanın isə Rusiya üzərinə apardıqları tədqiqatın nəticəsi olduqca maraqlıdır. Belə ki, müəlliflər 1990-cı ildən başlayaraq Rusiyada istehlak və yığımın dinamikasını təhlil edərək, əmtəə və xidmət alışında bir qədər stabil dinamikanın, lakin, yığım üzrə daha volatil dinamikanın olması nəticəsinə gəlmişlər [11]. M.Palat və A.Kunc ÜDM-İstehlak proporsiyasını 35 ölkə üzrə qiymətləndirərək, belə bir nəticəyə gəlirlər ki, bu proporsiya bəzi ölkələrdə artır, bəzi ölkələrdə isə azalır [13]. Bu fərqliliklər ehtimal ki, hər ölkənin inkişafının spesifik xüsusiyyətlərinə görə formalaşır.

Azərbaycan üzrə ən maraqlı dövr məhz pandemiya dövrüdür. Belə ki, 2020-ci ildə ÜDM-in və istehlakın azalmasına baxmayaraq, ÜDM-İstehlak proporsiyası artmışdır. Çünki, ÜDM-in azalma

tempi, istehlakın azalma tempindən daha yüksək olmuşdur. Karantin və məhdudiyyətlər istehlakçıların davranışlarına mənfi təsir göstərmişdir ki, bu da istehlakın müəyyən qədər azalmasına səbəb olmuşdur. Lakin, dövlətin həyata keçirdiyi sosial proqramlar çərçivəsində istehlakın kəskin azalmasının qarşısı alınmışdır. Bu isə sözügedən dövrdə sosial siyasətin effektiv olmasını deməyə imkan verir. Digər tərəfdən isə həmin il yığım proporsiyası da artmışdır. Belə ki, istehlakın azalması və pandemiya zamanı yarana biləcək hər hansısa bir böhran situasiyasına qarşı insanlarda adaptiv mexanizmin formalaşması istəyi yığımın artmasına səbəb ola bilər.

2021-ci ildə isə post-pandemiya effekti yaranmış, ÜDM və istehlak artmış, lakin yığım azalmışdır. Karantin məhdudiyyətlərinin bitməsi istehlakı stimullaşdırmışdır. Lakin, yenə də ÜDM-in artım tempi istehlakın artım tempindən yüksək olduğu üçün statistik illüziya yaranmışdır. Nəticədə ÜDM-İstehlak proporsiya əmsalı aşağı düşmüşdür. Yığım isə bu dövrdə özünün ən aşağı göstəricisini göstərmişdir. Belə ki, sözügedən dövr ərzində yığımın azalması, ÜDM-in isə artması ÜDM-Yığım proporsiyasının əmsalını kifayət qədər azaldaraq 0.171 səviyyəsinə gətirmişdir. Post-pandemiya çərçivəsində istehlakın kəskin artması, öz növbəsində yığımın azalmasını səciyyələndirmişdir ki, bu da pandemiya effekti kontekstində normal qiymətləndirilə bilər.

Baxmayaraq ki, Azərbaycanda 2023-cü ildə ÜDM-İstehlak və ÜDM-Yığım proporsiyalarının əmsalları optimal aralıq çərçivəsindədir, bu göstəricilər pandemiyadan öncəki dönəmdən hələ də aşağı səviyyədədir. Bu da pandemiyadan sonra sözügedən proporsiyalarda bərpa prosesinin tam formalaşmamasını şərtləndirməkdədir. Belə ki, 2019-cu ildə ÜDM-istehlak və ÜDM-yığım proporsiyalarının əmsalları müvafiq olaraq 0.686 və 0.203 olmuşdursa, 2023-cü ildə bu göstəricilər müvafiq olaraq 0.678 və 0.177 qiymətləndirilmişdir. 2023-cü il üzrə ÜDM-İstehlak proporsiya əmsalının 0.678 olması o deməkdir ki, hər 1 manatlıq əlavə dəyərin 67.8 qəpiyi istehlaka yönəlmişdir. Həmin il üzrə ÜDM-Yığım proporsiya əmsalının 0.177 olması o deməkdir ki, hər 1 manatın 17.7 qəpiyi yığıma yönəlmişdir. Bu aralıq yığım üçün optimal aralıq olsa da, bir qədər aşağı göstəricidir. Belə ki, sözügedən göstəricinin aşağı olması investisiya aktivliyinin zəifləməsini səciyyələndirə bilər. Bu səbəbdən sözügedən problemin aradan qalxması üçün təbii ki, investisiyaların stimullaşdırılması zəruridir.

Tədqiqat işinin növbəti sualı çərçivəsində İstehlak-Yığım proporsiyasının qiymətləndirilməsini aşağıdakı cədvəldə görmək mümkündür.

Cədvəl 4.

Azərbaycanda İstehlak-Yığım makroproporsiyasının dinamikası (2000-2023)

İllər	2000	2001	2002	2003	2004	2005	2006	2007	2008	2009	2010	2011
İstehlak-Yığım proporsionallıq əmsalı	3,85	3,63	2,18	1,36	1,18	1,27	1,53	2,00	2,24	2,84	2,78	2,34
İllər	2012	2013	2014	2015	2016	2017	2018	2019	2020	2021	2022	2023
İstehlak-Yığım proporsionallıq əmsalı	2,24	2,03	2,05	2,48	2,79	2,83	3,21	3,38	3,26	3,88	4,58	3,82

Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin göstəriciləri əsasında müəllifin hesablamaları (https://stat.gov.az/)

Yuxarıdakı cədvəl hər 1 manat yığıma müvafiq olaraq nə qədər istehlakın olduğunu müəyyənləşdirməyə imkan verir. Bu göstəricidə də volatillik müşahidə olunur. Belə ki, 2000-ci ildə 3.85 olan proporsionallıq əmsalı, 2004-cü ildə 1.18, 2008-ci ildə 2.84, 2022-ci ildə 4.58 və 2023-cü ildə 3.82 olaraq qiymətləndirilmişdir. Bu göstərici bizə insanların daha çox istehlaka meyilli olmasını bir daha səciyyələndirir. Belə ki, 2023-cü ildə proporsionallıq əmsalının 3.82 olması onu deməyə imkan verir ki, hər 1 manatlıq yığımın qarşısında 3.82 manat istehlak olunur. Bu proporsiya əmsalı nə qədər yüksəkdirsə istehlak bir o qədər güclü, yığım isə zəifdir. Tam əksinə, proporsiya əmsalı

azaldıqca yığıma meyillik artır. Bütövlükdə istehlakın artması hələ rifahın artması demək deyildir. Çünki, bu artımın real gəlirlərdən, yoxsa istehlak kreditlərindən qaynaqlandığını müəyyən etmək önəmlidir ki, bu da növbəti tədqiqatlar üçün önəmli tədqiqat sualı olaraq çıxış edə bilər.

Nəticə

Preventiv iqtisadi inkişaf üçün makroiqtisadi proporsiyaların qiymətləndirilməsi və tənzimlənməsi magistral amillərdən biri kimi çıxış etməkdədir. Tədqiqat zamanı qarşıya qoyulmuş üç tədqiqat sualı çərçivəsində müəyyən nəticələr əldə edilmişdir. Belə ki, Azərbaycanda ÜDM və istehlak, ÜDM və yığım, eyni zamanda, istehlak və yığım arasında çox güclü korrelyasiya əlaqəsi mövcuddur. Eyni zamanda ÜDM-İstehlak və ÜDM-Yığım proporsiyalarının əmsalları optimal proporsiya əmsalı daxilindədir. Lakin, əmsallar optimal proporsiya əmsallarının alt sərhədinə çox yaxındır və orta optimal proporsiya əmsalından aşağıdır. Xüsusilə, ÜDM-Yığım proporsiyasının aşağı olması uzunmüddətli perspektivdə investisiya çatışmazlığını və disproporsionallıq formalaşdıra bilər ki, bunun qarşısının alınması üçün də daxili investisiyaların stimullaşdırılmasının mütərəqqi mexanizmləri işlənilməlidir. Bu çərçivədə qeyd etmək lazımdır ki, ÜDM-İstehlak və ÜDM-Yığım proporsiyalarının əmsalları COVID-19 pandemiyasından öncəki dövrdəki əmsaldan hələ də aşağıdadır. Bu isə sözügedən makroproporsiyalarda bərpa prosesinin bir qədər tamamlanmadığını deməyə imkan verir. Eyni zamanda, İstehlak-Yığım proporsiyasının təhlili vasitəsilə müəyyən edilmişdir ki, 2023-cü ildə Azərbaycanda hər 1 manatlıq yığımın qarşısında 3.82 manat istehlak olunur ki, bu da əhalinin yığım yönümlü deyil də, istehlak yönümlü olmasını şərtləndirir. Lakin, qeyd etmək lazımdır ki, ÜDM-İstehlak və ÜDM-Yığım proporsiyalarının daha sistemli təhlili üçün real gəlirlər ilə istehlak kreditlərinin müqayisəli təhlilinin aparılması zəruridir ki, bu da gələcək tədqiqatlar üçün başlıca tədqiqat sualı olaraq müəyyənləşdirilməlidir.

ƏDƏBİYYAT

1. Кунцман М. В., Безновская В. В., Козлова А. А. Значение макроэкономических пропорций для изучения тенденций развития экономики //Автомобиль. Дорога. Инфраструктура – 2015. – №. 4 (6). – С. 23.
2. Емельянович, Н.В. Система макроэкономических показателей и пропорций и их динамика в Республике Беларусь // Инновационные технологии в промышленности и образовании : материалы I международной научной конференции, Пинск, Нукус, 14 декабря 2023 г. / УО “Полесский государственный университет”, Каракалпакский Государственный Университет имени Бердаха; редкол.: В.И.Дунай [и др.]. – Пинск: ПолесГУ, – 2023. – С. 180-183.
3. Маркс, К. Капитал: критика политической экономии: [в 3 томах]. К. Маркс. – Москва: Государственное издательство политической литературы, – т. 2, кн. 2. –1951. – 530 с.
4. Keynes J.M. The general theory of employment, interest and money / J.M.Keynes. – Edinburgh: R. & R. Clark, – 1936. – 403p.
5. Leão E.R., Leão P.R. The effect of government spending on the debt-to-GDP ratio in the medium term // International Economics and Economic Policy. – 2025, 22 (2), – p. 1-20.
6. Delbianco F., Dabús C. Optimal Saving, Optimal Investment and Economic Growth: Evidence from Countries with Different Income and Openness Levels // Journal of Economic Development. – 2024, 49 (4), – p. 99-118.
7. Bleaney M., Tian M. The trade-GDP ratio as a measure of openness // The World Economy. – 2023, 46 (5), – p. 1319-1332.
8. Ciampi F., Gordini N. Using Economic-Financial Ratios for Small Enterprise Default Prediction Modeling: An Empirical Analysis // 2008 Oxford Business & Economics Conference Proceedings. Oxford, UK. – 2008. – 1. – p. 1-21.
9. Su J., Friess D. A., Gasparatos A. A meta-analysis of the ecological and economic outcomes of mangrove restoration // Nature communications. – 2021, 12 (1), – p. 1-13

10. Шахбазов У.Г. Инвестиции как фактор обеспечения макроэкономических пропорций в экономике Азербайджана //Перспективы науки. – 2011, 8, – p. 192-197.
11. Митяева Н.В., Фёдорова Ю.В. Дисбаланс системы “Потребление-сбережение” домохозяйств современной России // Промышленность: экономика, управление, технологии. – 2015, – 5 (59), – p. 33-37.
12. Ndirangu E., Muturi W. Determinants of gross domestic savings in Kenya (1970-2013) // International Journal of Economics, Commerce and Management. – 2015, – 3 (7), – p. 157-178.
13. Palát M., Kunc A. Assessing the GDP structure in global comparison // Acta Universitatis Agriculturae et Silviculturae Mendelianae Brunensis. – 2011, – 59 (2), – p. 213-220.
14. Jammeh I. Y. The effects of annual GDP growth on consumption spending: evidence from West African Countries // International Journal of Social Sciences Perspectives. – 2022, – 11 (2), – p. 93-104.
15. Field, A. Discovering statistics using IBM SPSS statistics. 4th edition / A.Field. – Canada: Sage publications limited, – 2013.
16. Mishra, P. Descriptive statistics and normality tests for statistical data / P. Mishra, C. M. Pandey, U. Singh [et al.] //Annals of cardiac anaesthesia. – 2019, – 22 (1), – p. 67-72.
17. Song H. Y., Park S. An analysis of correlation between personality and visiting place using Spearman's rank correlation coefficient // KSII Transactions on Internet and Information Systems (TIIS). – 2020, – 14 (5), – p. 1951-1966.
18. Kumar A., Abirami S. Aspect-based opinion ranking framework for product reviews using a Spearman's rank correlation coefficient method / /Information Sciences. – 2018, – 460, – p. 23-41.
19. Li H., Cao Y., Su L. Pythagorean fuzzy multi-criteria decision-making approach based on Spearman rank correlation coefficient // Soft Computing. – 2022, – 26 (6), – p. 3001-3012.

Аслан Джавид оглу Азимзаде
Университет Одлар Юрду, преподаватель
кафедры “Экономика и экономические отношения”
Докторант Бакинского Евразийского Университета
E-mail: aslan.azimzadeh@oyu.edu.az

Анализ макропропорциональности между потреблением и сбережениями в Азербайджане

Резюме

Цель исследования – Основной целью исследования является оценка макропропорций между валовым внутренним продуктом (ВВП), потреблением и сбережениями в Азербайджане.

Методология исследования – В статье использован количественный метод исследования с использованием корреляционного, статистического и сравнительного анализа.

Практическое значение исследования – Результаты исследования могут служить важным индикатором при разработке долгосрочных планов развития национальной экономики.

Результаты исследования - в Азербайджане выявлена сильная корреляция между ВВП-Потреблением, ВВП-Сбережением и Потреблением-Сбережением. Коэффициенты пропорций ВВП-Потребления и ВВП-Сбережения находятся в пределах оптимального коэффициента пропорции. Анализ пропорций потребления и сбережений привёл к выводу, что на каждый манат сбережений приходится 3,82 маната потребительских расходов. Данный показатель характеризует пониженную склонность к накоплению, что может свидетельствовать о недостатке инвестиций и формировании диспропорциональности в долго-

срочной перспективе. Для предотвращения возможной диспропорциональности необходимо разработать прогрессивную политику стимулирования внутренних инвестиций.

Оригинальность и научная новизна исследования – заключаются в системном анализе макропропорций ВВП-Потребление, ВВП-Сбережения и Потребление-Сбережения.

Ключевые слова: макроэкономические пропорции, регулирование, потребление, сбережения, ВВП, корреляция.

Aslan Javid Azimzadeh
Odlar Yurdu University, Lecturer at the
Department of "Economics and Economic Relations"
PhD student at Baku Eurasian University
E-mail: aslan.azimzadeh@oyu.edu.az

Analysis of macroproportionality between consumption and savings in Azerbaijan

Summary

The purpose of the study – is to assess the macroproportion between Gross Domestic Product (GDP), consumption and savings in Azerbaijan.

The methodology of the research – The article uses the quantitative research method, using correlation, statistical and comparative analysis.

The practical importance of the research – The results of the study can serve as an important indicator in the preparation of long-term development plans for the national economy.

The results of the research – A strong correlation has been identified between GDP-Consumption, GDP-Savings and Consumption-Savings in Azerbaijan. The coefficients of the GDP-Consumption and GDP-savings proportions are within the optimal proportion coefficient. The analysis of the Consumption-Savings proportion led to the conclusion that for every 1 manat of savings, there are 3.82 manats of consumption expenditure. This indicator characterizes a lower propensity to save, which in the long term may be a signal of a lack of investment and the formation of disproportionality. In order to prevent possible disproportionality, it is necessary to develop a progressive policy to stimulate domestic investments.

The originality and scientific novelty of the research – is a systematic analysis of GDP-Consumption, GDP-Savings and Consumption-Savings macroproportions.

Key words: macroeconomic proportions, regulation, consumption, saving, GDP, correlation.